# Bakının məşhur qoçusunun faciəvi sonluğu



İlqar Müzəffər oğlu

AJB-nin üzvü

***Bakının tanınmış qoçularından söhbət açarkən, Malbaş Yusifin adı birincilər sırasında xatırlanır. Lakin onun barəsində oxuculara çox az məlumat verilib. Bugünkü söhbətimizdə milyonçu, eyni zamanda qoçu kimi ad-san qazanmış Yusif Hacı Rüstəm oğlu Abdullayevdən danışacağıq.***

***Bakının tanınmış şəxsiyyətləri arasında xüsusi yeri olan Yusif Hacı Rüstəm oğlu Abdullayev 1866-cı ildə Bakının Sabunçu kəndində dövlətli tacir ailəsində dünyaya göz açıb. Atası Hacı Rüstəm kişi Sabunçunun "Dağüstü" adlanan ərazisində yerləşən bir neçə dükanın və xeyli evlərin sahibi idi. Həmin yer camaat arasında uzun müddət Bakı qradonaçalniki Martınovun şərəfinə "Martinski" adlanırdı. Hazırda 144 nömrəli məktəbin binası və onun ətrafındakı iki mərtəbəli binalar Abdullayevlərin mülkləri olub. Ümumiyyətlə "Martinski" məhəlləsindəki bütün tikililər və dükanlar Abdullayevlərin və Aşurbəyovların sərəncamında idi.***

Hacı Rüstəm kişinin üç oğlu, bir qızı vardı: İlyas, Kəblə İbrahim, Yusif və Həlimə xanım. Bakı qoçuları arasında öz yeri olan Yusifin qoçuluğa meyl etməsinin əsaslı səbəbləri olmuşdur. Belə ki, böyük qardaşı İlyası çox gənc yaşlarında, cəmi 22 yaşının içində qətlə yetirmişdilər. Bu faciədən sonra düşmənlərinə qarşı nifrəti onu bu yola düşməyə meyl etmişdi.

Çox maraqlıdır ki, belə tanınmış bir qoçunun xoşagəlməz ayaması vardı. Keçmişdə Bakı şəhərində ayama qoymaq dəb halına keçmişdi. Hərəyə bir ayama qoşardılar. Məsələn, Şoşkə oğlu Ağababa, Pinti Rəhim, Yasovul Ağababa, İt Səfər, Qoduq Məlik və s. Şübhəsiz ki, sonuncularla müqayisədə Yusifin ayaması o qədər də xoşagəlməz deyildi. Yusifə Malbaş ayaması verilməsi onun heykəl, iribaşlı olması ilə əlaqədar idi. İlk vaxtlar bəlkə də bir qədər kobud səslənən bu ləqəb sonralar nəinki Yusifə ləkə gətirmiş, hətta onun adaşlarından seçilməsində və məşhurlaşmasında böyük rol oynamışdı. Malbaş Yusif gənc yaşlarında ailə qurmuşdu. Həyat yoldaşı Cənnət xanım gözəl və alicənab bir qadın olmuşdur. Lakin təəssüflər olsun ki, onların övladları dünyaya gəlməmişdir.

Yusif ucaboy, enli kürək, pəhləvan cüssəli bir adam olub. Onun haqqında danışarkən həm qoçuluğundan, həm də var-dövlətindən söz açmaq lazımdır. Malbaş Yusif qoçuluğundan əlavə həm də Bakı varlılarından biri kimi də tanınırdı.

***İndiki Neftçilər prospekti ilə Zevin küçəsinin kəsişdiyi bağçanın yerində vaxtilə ikimərtəbəli bir bina vardı. Həmin binanı Malbaş Yusif Bakı dövlətlisi Əşrəf bəy Əsədullayevdən iki yüz min qızıl pula almışdı. Həmin binanın birinci mərtəbəsi isə kirayəyə verilmiş yaşayış evlərindən ibarət idi. Bu binadan əlavə Malbaş Yusifin Şüvəlanda "bənd üstündə" gözəl bağı vardı. İndi bir vaxtlar onun bağ evi olmuş bu binanın yerində Şüvəlan gülçülük sovxozu yerləşir. O, bu bağı 1918-ci ildə xeyriyyəçi Əlibala Zərbəliyevin vasitəçiliyi ilə pəhləvan Şaban Baxşəliyevdən xeyli qızıl pula almışdı. Şaban Baxşəliyev Əlibala Zərbəliyevin qayınatasıydı. Birinci köhnə ittifaqın əməkdar idman ustası, məşhur pəhləvan, Bakı Dövlət Universitetinin kafedra müdiri, mərhum Rza Baxşəliyevin babasıdır.***

Bu mülklərdən əlavə Yusifin Ləhic bağlarında da yaxşı evləri olub.

Xalq arasında kasıb-kusuba əl tutan, yetim-yesirə pasiban olan bir şəxs kimi tanınan Malbaş Yusif heç vaxt üstünə gələni əliboş geri qaytarmaz, bundan əlavə imkansızların acınacaqlı vəziyyətinə sakit baxa bilməzmiş. Belə bir əhvalat danışırlar ki, günlərin bir günü Malbaş Yusif Sabunçu-Ramana mədənlərini nəzərdən keçirərkən oradakı aç-yalavac yaşayan, üst-başı yesir kökündə olan həmşəriləri görüb kefi pozulur. Evəşiyini atıb bir loxma çörək arxasınca düşən bu binəvaların halı onu necə mütəəssir edirsə, cibindən mauzerini çıxarıb yaxınlıqdan keçən neft kəmərini bir neçə yerdən gülləylə deşir. Həmin deşiklərdən neft axmağa başlayır. Kənardan dayanıb məlul-məlul bu mənzərəni seyr edən həmşərilərə üzünü çevirib: "Nə gözləyirsiniz? Qablar tapıb gətirin, doldurun, aparıb satın, çörək pulu edin. Qorxmayın, nə qədər mən burdayam, heç kəs sizə güldən ağır bir söz deyə bilməz. Mən başa düşə bilmirəm, axı nə üçün biz dura-dura Nobel kimi bir gəlmələr torpağımızda ağalıq etsin, var-yoxumuzu soyub aparsınlar. Məgər biz ölmüşük?".

Şübhəsiz ki, Malbaş Yusifin sözü qarşısında kimsə o yan-bu yan deyə bilməzdi. Onun ətrafında Əmizdərli Qoçu Baloğlan, Pirşağılı Bədəl, Hilal Nağıyev, Tuz Cabir kimi say-seçmə igidlərlə ibarət bir dəstə toplanmışdı. Bundan əlavə o, Bakı dövlətlisi Bəşir bəy Aşurbəyovla həm qohum, həm də yaxın dost idi. Belə ki, Yusifin qardaşı Kəblə İbrahimin oğlu İlyas Bəşir bəylə dost-doğma xalaoğluydu. Malbaş Yusiflə Bəşir bəy Aşurbəyovun arasında böyük zarafatları olub.

Malbaş Yusif dostlarına qarşı nə qədər mehriban, sakit olsa da, düşmənlərinə qarşı o qədər də qəddar idi. Dediyindən dönməyən, qorxusu, ürküsü olmayan bir adam kimi tanınmış bu adamın əsəbiləşəndə elə zəhmli baxmağı var idi ki, qarşısındakı onun bu baxışlarının altında qorxusundan özünü itirərmiş. Bu baxımdan Malbaş Yusiflə Sabunçu-Ramana tərəflərində ad çıxarmış Qafar adlı cavan bir qoçunun arasındakı münaqişə çox maraqlıdır...

Bu münaqişə Malbaş Yusifin bəzi xüsusiyyətləri barədə müəyyən fikir yaradır. Belə deyirlər ki, hələ çox gənc yaşlarından ətrafda səs-küy yaratmış Qafar da qabağından yeməyən oğlanlardanmış. Lakin nə qədərdə qorxmaz, cəsur adam olsa da, hər halda bu tərəflərdə artıq nə vaxtdan at oynadan Malbaş Yusifin qarşısında onun başqa cür hərəkət etməyə cürəti çatmazdı. Yolları kəsişməsi Qafarın bəzi xoşagəlməz əməlləri barədə xəbəri eşidən Yusif bu gənc qoçuya öz yerini unutmamağı lazım bilir. Üz-üzə gəlməsələr də artıq hər ikisinə, eləcə də Sabunçu-Ramana camaatına nə vaxtsa onların qarşılaşacaqları gün kimi aydın idi. Şübhəsiz ki, bu qarşılaşma gənc qoçu üçün çox acınacaqlı bir sonluqla keçəcəyi də məlum məsələ idi. ***Hər şey ilk məqamdaca həll ediləcəkdi. Aralarındakı müharibənin ən qızğın dövründə iş elə gətirir ki, Malbaş Yusifin atası Hacı Rüstəm kişi dünyasını dəyişir. Qoçu Qafar bunun əsl edavəti aradan götürmək imkanı olduğunu düşünərək kənd camaatına qoşulub yas mərasiminə yollanmaq istəyir. Onun bu məqsədindən xəbərdar olanlar qətiyyətlə Qafarı fikrindən daşındırmaq istəyirlər. Belə düşünmək olardı ki, məclisdə Malbaş Yusif lap qatı düşməninə qarşı başqa hərəkətə yol verməzdi. Ancaq bu belə deyildi, Hamı onun düşmənlərinə qarşı hansı münasibətdə olduğunu gözəl bilirdi. Elə buna görə də Qafarın bu məqsədi onun üçün ölümüylə başa çata bilərdi. Lakin bütün deyilənləri qulaq ardına vuran Qafar qalxıb yas məclisinə təşrif buyuran Qafar hüzr məclisinə daxil olanda Yusif lap yuxarı başda – mollanın yanında əyləşibmiş. Məclisdəkilər bu gözlənilməz gəlişdən heyrətə gəlirlər.*** Hamı ürəyində bircə şeyi düşünürdü: "Qafar öz ayağı ilə ölümünün ardınca gəlib". Malbaş Yusifin onu buradan sağ-salamat buraxacağı ağlabatan deyildi. Hətta molla da özünü itirib "Quran"ı yarımçıq saxlayır. Məclisə elə bir sükut çökür ki, milçək uçsa səsi eşidilərdi. Qafar da donuxub qapının ağzındaca dayanaraq Yusifin onu necə qarşılayacağını gözləyirdi. Məclis sahibi araya düşən pərtliyi aradan götürmək üçün yerindəncə Qafara işarə eləyib, öz yanına çağırır və oturmağa yer göstərir. Onun bu əməli ilə nə demək istədiyi məlum məsələ idi. Bura hüzr məclisi idi və gələn hər bir kəsin ürəyindəki ürəyində qalmalı idi. Düşmənçilik düşmənçilikdi, ancaq məclisdə hər şey kənara qoyulmalı idi. Qafar irəli yeriyib göstərilən yerdə əyləşir. Məclisin axırında Yusif Qafarı öz "primotka"sına oturdub sağ-salamat Ramanaya göndərir. (Primotka iki təkərli, bir at qoşulmuş, iki nəfərlik qoşquydu. Köhnə zamanlarda hörmətli şəxslərin hamısının "primotka"ları olardı. Hətta bəzi imkanlı adamların "primofka"sı uzaqdan keçəndə belə o saat bilərdilər ki, bu filankəsə məxsusdur).

*İndiki Neftçilər prospekti ilə Zevin küçəsinin kəsişdiyi bağçanın yerində vaxtilə ikimərtəbəli bir bina vardı. Həmin binanı Malbaş Yusif Bakı dövlətlisi Əşrəf bəy Əsədullayevdən iki yüz min qızıl pula almışdı. Həmin binanın birinci mərtəbəsi isə kirayəyə verilmiş yaşayış evlərindən ibarət idi. Bu binadan əlavə Malbaş Yusifin Şüvəlanda "bənd üstündə" gözəl bağı vardı. İndi bir vaxtlar onun bağ evi olmuş bu binanın yerində Şüvəlan gülçülük sovxozu yerləşir. O, bu bağı 1918-ci ildə xeyriyyəçi Əlibala Zərbəliyevin vasitəçiliyi ilə pəhləvan Şaban Baxşəliyevdən xeyli qızıl pula almışdı. Şaban Baxşəliyev Əlibala Zərbəliyevin qayınatasıydı. Birinci köhnə ittifaqın əməkdar idman ustası, məşhur pəhləvan, Bakı Dövlət Universitetinin kafedra müdiri, mərhum Rza Baxşəliyevin babasıdır*

Qafarı Malbaş Yusifə məxsus qoşquda görənlər əvvəlcə gözlərinə inana bilmirdilər.

Bu hadisədən sonra Yusiflə Qafar arasındakı ədavət dostluğa çevrilir...

Malbaş Yusif milli adət-ənənələrə əməl edən, dindar, Allah yolunu saxlayan bir şəxs idi. Eyni zamanda o dünya işlərindən baş çıxaran, gözüaçıq adamdı. Rusiyanın müxtəlif şəhərlərinə dəfələrlə səyahətə çıxan Yusif yay fəsli Sabunçuda havalar isti olduğundan ailəsi ilə birlikdə Kislovodska dincəlməyə gedərmiş. Ailənin sayından asılı olmayaraq o kupeli bütöv bir vaqonun pulunu ödəyib biletlərini alardı ki, kənar şəxslər onlara mane olmasınlar. Malbaş Yusif belə kişi idi...

Təəssüflər olsun ki, Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra başqa imkanlı adamlar kimi Malbaş Yusif də təqiblərə məruz qalır. 1920-ci ilin avqust ayında o, heç bir səbəb olmadan ÇK-nın sədri "Altıbarmaq" ləqəbi ilə məşhur olan Baba Əliyevin göstərişi ilə həbs edilərək Bayıl türməsinə salınır. Bu yerdə nə qədər acınacaqlı olsa da, belə bir faktı da sizlərə çatdırmağı lazım bilirik. Görənlər belə söyləyirlər ki, həmin dövr həbs olunanlardan on bir nəfərin əlinə süpürgə verib "Dənizkənarı parkı" süpürtdürürmüşlər. Malbaş Yusif də həmin on bir nəfərin arasındaydı...

***Bu xəbər Yusifin böyük qardaşı Kəblə İbrahimə çatır. O, Sabunçudan Bakıya yollanır və deyilən yerə gəlib çıxaraq qardaşının əlində süpürgə yer süpürdüyünü öz gözləriylə görür. Onu bu mənzərə dəhşətə gətirir. Lakin əlindən nə gələrdi ki... Zaman başqa zaman idi...***

***Kəblə İbrahim beləcə qəzəbdən boğularaq Sabunçuya qayıdır və aradan bir az keçmiş evdəcə ürəyi partlayır...***

***Malbaş Yusifin məruz qaldığı bu vəhşiliklərin ömrü çox uzun çəkmir. 1920-ci ilin sentyabr ayında o, məhkəməsiz-filansız güllələndi...***

***Abdullayev Yusif Hacı Rüstəm oğlunun güllələnməsindən bir neçə il sonra onu və onun kimi onlarla tanınmış şəxsiyyətlərin ömrünü yanda qırmış ÇK-nın sədri Altıbarmaq Babanın özünü də gecənin birində aparmağa gələcəkdilər. Səs-küy salmaq istəyən ailə üzvlərini sakitləşdirməyə çalışan qaniçən: "Sakit olun, etmişik, edəcəklər" söyləyəcəkdi. Onun aqibəti də eyni faciə ilə bitəcəkdi. Ancaq bütün bunların onun günahsız yerə gedər-gəlməzə göndərdiyi adamlara heç bir xeyri olmayacaqdı... Onları geri qaytarmaq mümkün deyildi...***

***Və Bakının mənəm kişilərindən biri də beləcə ömrünü faciəli bir sonluqla başa vurdu.***

